***MÜƏLLİMLƏRİN SERTİFİKATLAŞDIRILMASI***
***TEACHER CERTIFICATION***
***СЕРТИФИКАЦИЯ УЧИТЕЛЕЙ***

*UOT 658.5*

***Gülər Tarverdi qızı Xəlilova***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*böyük elmi işçisi*
*https://orcid.org/0009-0000-3326-0069*
*E-mail: g.xelilova@arti.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(6).268-271*

# TƏHSİLVERƏNLƏRİN SERTİFİKATLAŞDIRILMASI PROSESİNİN SƏMƏRƏLİLİYİ VƏ DAVAMLI İNKİŞAFI

***Gular Tarverdi Khalilova***
*senior researcher*
*at the Institute of Education of the Republic of Azerbaijan*

# THE EFFECTIVENESS AND CONTINUOUS DEVELOPMENT OF THE EDUCATOR EVALUATION PROCESS

***Гюляр Тарверди гызы Халилова***
*старший научный сотрудник Института Образования Азербайджанской Республики*

# ЭФФЕКТИВНОСТЬ И НЕПРЕРЫВНОЕ РАЗВИТИЕ ПРОЦЕССА СЕРТИФИКАЦИИ ОБУЧАЮЩИХ

**Xülasə.** Məqalədə təhsilverənlərin sertifikatlaşdırılması prosesinin mahiyyəti, məqsədləri və effektivlik meyarları təhlil edilmiş, həm Azərbaycan, həm də beynəlxalq təcrübələr müqayisəli şəkildə araşdırılmışdır. Bu prosesin əsas funksiyası müəllimlərin bilik, bacarıq və səriştələrinin normativ meyarlara uyğunluğunu qiymətləndirməklə onların peşəkar inkişafını stimullaşdırmaqdan ibarətdir. Qeyd olunur ki, Azərbaycan modeli şəffaflıq, obyektivlik və inkişafyönlülük prinsiplərinə əsaslanmaqla milli kontekstə uyğun formalaşdırılmışdır. Nəticə etibarilə, təhsilverənlərin sertifikatlaşdırılması təkcə qiymətləndirmə vasitəsi deyil, həm də təhsildə keyfiyyətin davamlı inkişafını təmin edən strateji mexanizm kimi dəyərləndirilir.
***Açar sözləri:*** *təhsilverənlərin sertifikatlaşdırılması, təhsilin keyfiyyəti, peşəkar inkişaf, sertifikatlaşdırılmanın effektivliyi, beynəlxalq təcrübə*

**Abstract.** The article analyzes the essence, objectives, and effectiveness criteria of the teacher certification process, and comparatively examines both Azerbaijani and international practices. The primary function of this process is to assess teachers’ knowledge, skills, and competencies against normative standards in order to stimulate their professional development. It is noted that the Azerbaijani model is designed in accordance with the national context, based on the principles of transparency, objectivity, and development orientation. Consequently, teacher certification is considered not only as an assessment tool but also as a strategic mechanism ensuring the sustainable development of education quality.
***Keywords:*** *Teacher Certification, education quality, professional development, certification effectiveness, international practices*

**Аннотация.** В статье проанализированы сущность, цели и критерии эффективности процесса сертификации педагогов, а также сравнительно изучен опыт как Азербайджана, так и зарубежных стран. Основная функция этого процесса заключается в оценивании соответствия знаний, навыков и компетенций педагогов нормативным критериям с целью стимулирования их профессионального

развития. Отмечается, что азербайджанская модель сформирована с учётом национального контекста на принципах прозрачности, объективности и ориентации на развитие. В результате сертификация педагогов рассматривается не только как средство оценивания, но и как стратегический механизм, обеспечивающий устойчивое развитие качества *образования.*

***Ключевые слова:*** *сертификация учителей, качество образования, профессиональное развитие, эффективность сертификации, международный опыт*

Müasir dövrdə təhsil sistemlərinin keyfiyyətinin təmin olunması və bu keyfiyyətin davamlı şəkildə inkişaf etdirilməsi hər bir ölkənin sosial, iqtisadi və mədəni inkişaf strategiyalarında prioritet istiqamət kimi müəyyənləşdirilir. Təhsilin keyfiyyəti anlayışı çoxşaxəli olub, onun əsas komponentlərindən biri müəllim fəaliyyətinin səmərəliliyidir. Müəllimlərin peşəkar bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi mexanizmləri sırasında təh-silverənlərin sertifikatlaşdırılması prosesi mühüm yer tutur. Mahiyyət etibarilə, müəllimin pedaqoji fəaliyyətinin standart meyarlara uyğunluğunu yoxlamaqla onun bilik, bacarıq və səriştələrinin real səviyyəsini müəyyən etməyi və bu qiymətləndirmə nəticəsində peşəkar inkişaf üçün yeni istiqamətlər təklif etməyi nəzərdə tutur.

Təhsilverənlərin sertifikatlaşdırılması prosesi təhsil sistemində keyfiyyət təminatı sahəsində atılmış ən əhəmiyyətli islahatlardan biri kimi qiymətləndirilir. Azərbaycanda təhsilverənlərin sertifikatlaşdırılması ilk dəfə 2022-ci ildə təşkil edilib. Bu prosesin tətbiqi müəllim fəaliyyətinin nəticəyönümlü idarə edilməsinə, həmçinin tədrisin məzmun və metodikasında müasir yanaşmaların stimullaşdırılmasına xidmət edir. Burada əsas məqsədi yalnız qiymətləndirmə aparmaq deyil, həm də müəllimlərin özünütəkmilləşdirmə motivasiyasını artırmaq, təhsil sistemində fərdi məsuliyyət və peşəkar inkişaf mədəniyyətini formalaşdırmaqdır.

Sertifikatlaşdırma prosesinin effektivliyi onun nəzəri və metodoloji əsaslarının düzgün qurulmasından asılıdır. Beynəlxalq təcrübə göstərir ki, bu prosesin uğurlu olması üçün üç əsas prinsip təmin olunmalıdır: şəffaflıq, obyektivlik və inkişaf yönümlülük. Azərbaycan təhsil sistemində tətbiq olunan sertifikasiya modeli məhz bu prinsiplərə əsaslanır və mərhələli şəkildə həyata keçirilir. Əvvəlcə müəllimlərin fənn üzrə bilik və pedaqoji səriştələri test üsulu ilə qiymətləndirilir, daha sonra müsahibə mərhələsində onların kommunikativ bacarıqları, etik davranış normalarına uyğunluğu və peşəkar motivasiyası araşdırılır. Bu yanaşma həm bilik, həm də davranış aspektlərini əhatə etməklə kompleks qiymətləndirmə imkanı yaradır.

Qlobal təhsil məkanında təhsilverənlərin sertifikatlaşdırılması çoxsaylı modellər əsasında həyata keçirilir. Məsələn, Finlandiyada müəllim peşəsi yüksək akademik hazırlıq tələb etdiyindən burada ayrıca sertifikatlaşdırılma prosesi mövcud deyil. Bu modeldə keyfiyyət təminatı mexanizmi daha çox giriş mərhələsində, yəni müəllim olmaq üçün hazırlıq prosesində formalaşır. Sinqapur və Cənubi Koreya kimi ölkələrdə isə sertifikatlaşdırma fasiləsiz peşəkar inkişafla sıx inteqrasiya olunmuşdur. Müəllimlər müəyyən aralıqlarla təlimlərə, seminar və ixtisasartırma proqramlarına cəlb olunur. Qazaxıstan modeli isə Azərbaycan təcrübəsinə daha yaxın olub, dövlət səviyyəsində mərkəzləşdirilmiş imtahan və qiymətləndirmə mexanizmlərinə əsaslanır. Sinqapur modelində sertifikatlaşdırma və peşəkar inkişaf prosesi bir-birinə inteqrasiya edilmişdir. Burada müəllimlər fasiləsiz təlimlərdə iştirak edir, fəaliyyət göstəricilərinə görə qiymətləndirilir və bu nəticələr onların inkişaf planına daxil edilir. Finlandiya təcrübəsində isə müəllimlərin universitet səviyyəsində yüksək akademik hazırlıqdan keçməsi onların sertifikasiyasını praktik olaraq tələb etmədən təmin edir. Bu, keyfiyyətin formalaşmasının ilkin mərhələdə, yəni peşəkar hazırlıq prosesi zamanı baş verməsini nəzərdə tutur. Bu modellərdən fərqli olaraq, Azərbaycanda sertifikasiya sistemi mərkəzləşdirilmiş və vahid standartlara əsaslanan mexanizm kimi qurulub.

Bu müqayisə göstərir ki, Azərbaycan təhsil sistemi təhsilverənlərin sertifikatlaşdırılması prosesini beynəlxalq praktikanın əsas elementlərini nəzərə alaraq formalaşdırmış, lakin onu milli kontekstə uyğunlaşdırmışdır. Yerli modelin üstün cəhəti onun vahid standartlara əsaslanması, prosesin rəqəmsal sistemlərlə idarə olunması və bütün müəllimlər üçün eyni meyarların tətbiqidir. Bununla yanaşı, bəzi beynəlxalq modellərdə müşahidə edilən davamlı peşəkar inkişaf mexanizmlərinin inteqrasiyası hələ də inkişaf mərhələsindədir.

Prosesinin səmərəliliyinin təhlili göstərir ki, bu islahat təhsil sistemində bir sıra pozitiv dəyişikliklərə səbəb olmuşdur. İlk növbədə, müəllimlər arasında peşəkar rəqabət və fərdi məsuliyyət hissi artmış, fənn üzrə biliklərin yenilənməsi və metodik təkmilləşmə meylləri güclənmişdir. Sertifikasiya həm də təhsil müəssisələrində hesabatlılıq və nəticəyönlü idarəetmə mədəniyyətinin formalaşmasına təkan vermişdir. Müəllimlər tədris fəaliyyətlərini yalnız gündəlik praktik bacarıqlarla deyil, eyni zamanda imtahan və müsahibə mərhələsində tələb olunan səriştələr çərçivəsində inkişaf etdirməyə çalışırlar. Effektivliyi müəyyən etmək üçün bir sıra amillər nəzərə alınmalıdır. Bunlar arasında müəllimlərin motivasiyası, qiymətləndirmə sisteminin obyektivliyi, təlim və dəstək mexanizmlərinin mövcudluğu, nəticələrin tədris keyfiyyətinə təsiri kimi komponentlər ön plana çıxır.

Beynəlxalq müqayisələr göstərir ki, sertifikasiyanın effektivliyi əsasən onun müəllimin peşəkar inkişaf planına inteqrasiyası ilə müəyyən olunur. Sinqapur və Kanadada müəllim sertifikasiyası yalnız formal qiymətləndirmə deyil, həm də onların fəaliyyətinin davamlı təkmilləşdirilməsinə xidmət edən bir mexanizmdir. Bu ölkələrdə müəllimlər portfoliolar, fəaliyyət göstəriciləri və həmkar rəyləri əsasında qiymətləndirilir. Azərbaycan modeli isə daha çox standart test və müsahibə mərhələlərinə əsaslanır ki, bu da sistemin obyektivliyini artırsa da, fasiləsiz inkişaf baxımından bəzi məhdudiyyətlər yaradır.

Davamlı inkişaf istiqamətləri çərçivəsində Azərbaycan təcrübəsində bir neçə əsas prioritet müəyyən edilə bilər. İlk növbədə, sertifikasiya nəticələrinin müəllimlərin fərdi inkişaf planlarına daxil edilməsi vacibdir. Bu, müəllimlərin zəif tərəflərinin gücləndirilməsi və güclü tərəflərinin inkişaf etdirilməsi üçün konkret addımların atılmasına imkan verir. İkincisi, regionlararası fərqlərin aradan qaldırılması və bütün müəllimlər üçün bərabər imkanların yaradılması prosesin davamlılığını təmin edəcək. Bu baxımdan onlayn təlim platformaları, elektron portfoliolar və distant mentorluq proqramları mühüm rol oynayır. Üçüncüsü, sertifikatlaşdırma mexanizminin müəllimlər üçün motivasiyaedici və dəstəkləyici xarakter daşıması, stress yaratmaması üçün sosial və psixoloji dəstək tədbirləri həyata keçirilməlidir. Dördüncüsü, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi sertifikasiya prosesinin inkişafına əlavə imkanlar yaradacaq, yerli təcrübəni beynəlxalq standartlarla uyğunlaşdırmaq üçün şərait təmin edəcəkdir.

Nəticə olaraq, təhsilverənlərin sertifikatlaşdırılması yalnız qiymətləndirmə mexanizmi kimi deyil, eyni zamanda təhsil sistemində keyfiyyətin davamlı inkişafını təmin edən əsas instrumentlərdən biri kimi qiymətləndirilməlidir. Sertifikasiya prosesi müəllimlərin peşəkar fəaliyyətini sistemli şəkildə inkişaf etdirir, onların bilik və bacarıqlarının ölçülməsini təmin edir və tədris keyfiyyətinin yüksəldilməsinə töhfə verir. Azərbaycan təcrübəsi, beynəlxalq modellərlə müqayisədə, daha çox standartlaşdırılmış və mərkəzləşdirilmiş yanaşmanı əks etdirir, lakin fasiləsiz peşəkar inkişaf mexanizmlərinin tətbiqi ilə daha yüksək effektivliyə nail olmaq mümkündür.

Bu gün, demək olar ki, təhsilverənlər prosesi uğurla başa vurublar. Müəllimlərin böyük hissəsi sertifikasiyadan keçib. Onların ciddi bir hissəsi əməkhaqqında artım müşahidə olunub. Bu prosesin nəticəsində həm müəllimin nüfuzu artıb, həm də məktəblərə inam yaranıb. Beləliklə, sertifikatlaşdırma prosesi Azərbaycan təhsil sisteminin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artıran, müəllim fəaliyyətini daha şəffaf, obyektiv və davamlı inkişaf yönümlü edən əsas alət kimi qəbul edilməlidir.

**Problemin aktuallığı.** Təhsilverənlərin sertifikatlaşdırılması təhsil keyfiyyətinin artırılması və müəllim fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanda bu prosesin tətbiqi yeni mərhələyə qədəm qoysa da, onun effektivliyinin elmi əsasda təhlili və beynəlxalq təcrübə ilə müqayisəsi aktual tədqiqat istiqamətidir.

**Problemin elmi yeniliyi.** Tədqiqatda Azərbaycanda təhsilverənlərin sertifikatlaşdırılması prosesi beynəlxalq modellərlə müqayisəli şəkildə təhlil edilmiş, sistemin güclü və zəif tərəfləri müəyyən olunmuş və davamlı inkişaf üçün elmi əsaslı təkliflər irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqat təhsilverənlərin fəaliyyətinin keyfiyyət qiymətləndirilməsi sahəsində nəzəri bilikləri zənginləşdirir və sertifikatlaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, peşəkar inkişaf proqramlarının planlaşdırılması üçün praktik tövsiyələr təqdim edir.

## Ədəbiyyat

1. Təhsilverənlərin sertifikatlaşdırılması üzrə metodik vəsait. –Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutu., –2023. –120 s.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Müəllimlərin sertifikatlaşdırılması üzrə normativ sənədlər toplusu. –Bakı, –2022. –80 s.
3. Azərbaycan Respublikasında müəllimlərin peşəkar inkişafı strategiyası. –Bakı: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, –2023. –65 s.
4. European Commission. Teachers in Europe: Careers, development and well-being. –Luxembourg: Publications Office of the European Union, –2021. –150 p.
5. Finnish National Agency for Education. Teacher education in Finland: Current practices and future trends. –Helsinki: EDUFI, –2020. –102 p.
6. Ministry of Education of Kazakhstan National teacher certification framework of Kazakhstan. –Astana: Ministry of Education, –2022. –75 p.
7. Ministry of Education of Singapore. Teacher growth model and professional development pathways. –Singapore: MOE Publications, –2021. –90 p.

**Redaksiyaya daxil olub:** 20.11.2025